UOT 378.

**_Sevil Mirhəsən qızı İsayeva,_**
*Mingəçevir Dövlət Universitetinin baş müəllimi*

# AZƏRBAYCANDA SARSILMAZ XALQ-DÖVLƏT VƏHDƏTİNİN DAVAMLI İNKİŞAFIN VACİB ŞƏRTİ KİMİ TƏLƏBƏLƏRƏ AŞILANMASI

**_Севиль Миргасан гызы Исаева,_**
*старший преподаватель Мингечаурского Государственного Университета*

# ЕДИНСТВО НАРОДА И ГОСУДАРСТВА В АЗЕРБАЙДЖАНЕ КАК ВАЖНОЕ УСЛОВИЕ НЕПРИРЫВНОГО РАЗВИТИЯ

**_Sevil Mirgasan Isayeva,_**
*senior teacher, Mingechaur State University*

# THE UNITY OF THE NICE OF THE PEOPLE AND THE STATE IN AZERBAIJAN AS AN IMPORTANT CONDITION OF CONTINUOUS DEVELOPMENT

**Xülasə:** Azərbaycan özünün təhsil sistemini dünyanın ən mütərəqqi ölkələrinin təhsil prinsiplərindən istifadə etməklə davamlı inkişaf yolu ilə təkmilləşdirir, insanın həyati bacarıqlara malik bir şəxsiyyət kimi formalaşması istiqamətində səmərəli fəaliyyət göstərir. Məqalədə gənc nəslin və tələbələrin vətəndaş kimi yetişdirilməsində milli-mənəvi və ümumbəşəri dəyərlərdən istifadə edərək, təkamül, davamlı inkişaf yolu ilə təhsil müstəvisində həyata keçirdiyi islahatlardan bəhs olunub.
***Açar sözlər:*** *cəmiyyət, demokratiya, Heydər Əliyevin zəngin ideyaları ,tələbə, milli-mənəvi dəyərlər, inteqrasiya, düzgün siyasət, davamlı inkişaf*

**Резюме:** Азербайджан совершенствует систему образования за счет устойчивого развития, используя принципы образования самых прогрессивных стран мира, эффективно работая над формированием человека как личности, обладающей необходимыми жизненными навыками. В статье рассматриваются реформы, осуществляемые при воспитании подрастающего поколения как граждан.
***Ключевые слова:*** *общество, демократия, ценные идеи Гейдара Алиева, студент, национально-нравственные ценности, интеграция, верная политика, непрерывное развитие*

**Summary:** Azerbaijan is improving the education system through sustainable development, using the principles of education of the most progressive countries in the world, effectively working on the formation of a person as an individual with the necessary life skills. The article discusses the reforms carried out in educating the younger generation as citizens
***Key words:*** *sociaty, democraty, rish idea of Heydar Aliyev, national, mental and moral values, exact politics, durable devolopment*

Azərbaycanın dünyəvi, demokratik və hüquqi dövlət kimi formalaşması və bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olduğu bir şəraitdə onun təhsil sisteminin inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya edilməsi, davamlı inkişafı mühüm rol oynayır və təhsildə dəyişikliklərin aparılmasını bir zərurət kimi qarşıya qoyur. Cəmiyyət özünün ən çətin problemlərini həll etmək üçün əvvəlcə insan resurslarından səmərəli istifadə olunmasında potensial imkanlarını səfərbər edir. Həmçinin, gənc nəslin vətəndaş kimi yetişdirilməsində milli-mənəvi və ümumbəşəri dəyərlərdən istifadə edərək, təkamül, davamlı inkişaf yolu ilə təhsil müstəvisində islahatlar həyata keçirir. Hazırda Azərbaycan özünün təhsil sistemini dünyanın ən mütərəqqi ölkələrinin təhsil prinsiplərindən istifadə etməklə davamlı inkişaf yolu ilə təkmilləşdirir, tələbələrin həyati bacarıqlara malik bir şəxsiyyət kimi formalaşması istiqamətində səmərəli fəaliyyət

göstərir. Bu gün respublikanın ən kiçik vətəndaşı da diqqətdən kənarda qalmamışdır.

Ölkəmizdə davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi Azərbaycan hökumətinin qarşıya qoyduğu və çox böyük müvəffəqiyyətlə həyata keçirdiyi mühüm prioritetlərdən biridir. Bəlli olduğu kimi, bu, ölkə iqtisadiyyatının hərtərəfli, şaxələndirilmiş şəkildə inkişafını nəzərdə tutur. Burada neft sektorundan əldə edilən gəlirlər hesabına qeyri-neft sektoruna böyük sərmayələrin yatırılması, beləliklə də, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin davamlı şəkildə inkişaf etdirilməsi başlıca hədəf kimi götürülür.

Hazırda ölkəmizin davamlı inkişaf sahəsində əldə etdiyi böyük uğurlar inkişafın Azərbaycan modelindən danışmağa imkan verir. Davamlı, dinamik inkişaf məntiqinə əsaslanan bu modelin strateji istiqamətləri aşağıdakı kimi səciyyələndirilə bilər:

1) sərbəst bazar münasibətlərinə əsaslanan, sosialyönlü bütöv iqtisadi sistemin – müstəqil milli iqtisadiyyatın formalaşdırılması;

2) ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması;

3) milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyası.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı fərmanlarda təsdiq etdiyi iqtisadi siyasət sənədlərində bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan əsas vəzifələr müəyyənləşdirilib. Bu sıraya ölkənin malik olduğu iqtisadi potensialın inkişafının tarazlaşdırılması, çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılmasını və s. bu kimi vəzifələri aid etmək mümkündür.

Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir (1,8). Hazırda ulu öndər Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan (BTC) Azərbaycan neftinin dünya bazarına çıxarılması ilə yanaşı, həm də “İpək yolu”nun və türkdilli ölkələrin əsas magistral kəməri statusunu qazanmışdır. BTC neft kəmərləri ölkəsinə dünya “arteriya”sı kimi daxil olmuşdur. Onu da qeyd edək ki, min bir əziyyətlə başa gələn bu əsas ixrac neft boru kəmərinin texniki-iqtisadi əhəmiyyətindən başqa, onun siyasi rolu da danılmazdır. Belə ki, həmin neft kəməri dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin yaranmasına, dünya xalqları ilə əlaqələrinin yenidən qurulmasına təkan verərək, Azərbaycan dövlətinin xarici siyasətinin güclənməsinə, beynəlxalq aləmdə nüfuzunun artmasına, eləcə də onun siyasi və iqtisadi baxımdan davamlı inkişaf etməsinə səbəb olmuşdur. Bu strategiyanın gerçəkləşməsi Azərbaycanın dövlət müstəqilliyinin əbədi olmasına ən etibarlı qarant oldu. Böyük dövlət xadiminin siyasi uzaqgörənliyi sayəsində Azərbaycanın gələcək inkişaf tarixinin əsası qoyuldu.

Digər iri layihələr – Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi və “Şahdəniz” yatağından qazın hasilatı da ümummilli liderimizin Azərbaycan xalqı və dövləti qarşısında böyük xidmətlərinin sırasında özünəməxsus yer tutur. Bütün bunlara görə xalqımız, haqlı olaraq, Heydər Əliyevi müstəqil Azərbaycanın qur-ucusu, yaradıcısı, memarı adlandırır.

Əgər dünya iqtisadiyyatının inkişafında Azərbaycan nefti mühüm əhəmiyyət daşıyırsa, deməli, dünyanın qabaqcıl elmi axtarışlarında, xüsusilə qlobal strategiyaların hazırlanmasında da Azərbaycan intellekti bu və bundan da yüksək missiyada iştirak edə bilər. Neft və İntellekt! İkisi də enerjiyə çevrilir: biri maddi, digəri mənəvi enerjiyə. Neft kapitali milli inkişafımız üçün nə qədər zəruridirsə, elm kapitalı da bir o qədər və ondan da artıq zəruridir. Neft bir vaxt tükənə bilər, zəka sərvəti isə heç vaxt tükənmir, işləndikcə artır. “Neft qızılını” “İnsan qızılına” çevirmək ideyasının gerçəkləşməsi də məhz bu maddi və mənəvi sərvətimizin düzgün idarə olunmasından asılıdır. Eyni zamanda, bizim tarixi inkişaf təcrübəmiz də milli intellekti dünya standartları səviyyəsinə qaldırmaq üçün imkanla-

rın kifayət qədər böyük olduğunu təsdiq edir: dünya sivilizasiyasının inkişafının bütün mərhələlərində Azərbaycan mədəniyyətinin planetimizin hər hansı bir nöqtəsində mövcud olan zəngin mədəniyyətlə müqayisə edilə biləcək üstünlükləri olub. Ulu öndər məhz bu həqiqətlərin işığında, Azərbaycan elminin modernləşməsi istiqamətində mühüm siyasi qərarlar qəbul edirdi (2, 272).

Bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi sabitliyini təmin etmiş müstəqil dövlətdir. Artıq dövlətimiz mötəbər kürsülərdən öz sözünü deməyə, haqlı mövqeyini bildirməyə və qorumağa qadir, zəngin iqtisadi potensiala malikdir. Müstəqilliyin ilk illərindən məlum səbəblərdən bərbad hala düşmüş Azərbaycan iqtisadiyyatında davamlı inkişafa, tərəqqiyə nail olunmasına, çox kövrək və zəif dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsinə, qədim tarixi və çoxəsrlik zəngin mədəniyyəti olan millətimizin bütün dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyətinə görə əvəzsiz dövlət xadimi Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi müxtəlif dövrlərdə həyata keçirdiyi strategiya bütün sahələrdə əldə edilən uğurların əsasını təşkil edir (2, 35). Onun ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın iqtisadi dirçəlişi, tərəqqi və inkişafı təmin edilmişdir.

Ulu öndər Heydər Əliyevin "Təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir" prinsipinin yerinə yetirilməsinin təmin olunması üçün milli dəyərləri saxlamaqla, təkamül yolu ilə dünya təhsil sisteminə doğru hərəkət edib, Azərbaycan təhsil sistemini yeni zirvələrə qaldırmalıyıq. Məhz bu mənada gənc nəslin tərbiyəsinin milli zəmində təşkili mühüm əhəmiyyət kəsb edir. Təlim-tərbiyə prosesi yalnız elm deyil, həm də böyük sənətdir. Onun tamamlanması mümkün deyil, təkmilləşməsi və inkişafı isə sonsuzdur.

Azərbaycan xalqı dövlətçiliyinə sadiq qalaraq hər zaman ümummilli liderin ideyaları ətrafında sıx birləşəcəkdir. Çünki Azərbaycanda sarsılmaz xalq-dövlət vəhdəti mövcuddur.

Qədirbilən xalqımız şah əsəri müstəqil Azərbaycan dövləti olan ümummilli liderimiz Heydər Əliyevin bu xidmətlərini heç vaxt unutmayacaqdır.

Günümüzün reallığı sübut edir ki, ölkənin davamlı inkişafına, milli maraqlarımıza, əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edən sosial-iqtisadi strategiya bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl, məqsədyönlü və praqmatik siyasəti sayəsində müvəffəqiyyətlə reallaşdırılmaqdadır. Bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Eyni zamanda, bütün bunlar elm adamlarının, dövlət qayğısına cavab olaraq daha da fəallaşmalarını, ölkədə həyata keçirilən islahatların elmi əsaslarının işlənib hazırlanmasında xüsusi fəallıq göstərmələrini tələb edir. Tam əminliklə demək mümkündür ki, möhtərəm Prezident İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi davamlı inkişaf xəttini inamla davam etdirərək ölkəni daha əzmlə irəliyə aparacaqdır. Prezidentin imzaladığı fərman və sərəncamlar regionların sosial-iqtisadi inkişafında, səhiyyənin, təhsilin, mədəniyyətin, yol-nəqliyyat kompleksinin tərəqqisində böyük rol oynayır.

Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Bu müəyyənləşmə Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə bütün dünyada liderə çevrilməsi faktıdır.

Dövlətimizin iqtisadi, sosial, mədəni sahələrdə bugünkü inkişafı xalqımızın gələcəkdə daha firavan həyatından xəbər verir. Bu gün daha böyük uğurlara imza atmaq üçün inamla çalışan xalqımızı sabah daha əzəmətli işlər gözləyir. Hər birimizin bu zəfər yürüşündə məmləkətimizin bir əsgəri olmaqla ölkə Prezidentinin apardığı düzgün, çevik siyasəti daim dəstəkləməklə onun ərafında bundan sonra da daha sıx birləşəcəyik.

Heydər Əliyev ideyalarına söykənən xarici siyasət kursu Azərbaycanın daha təkmil bir dövlət kimi yeni və qüdrətli imicini və nüfuzunu formalaşdırmaqla yanaşı, həm milli-mənəvi dəyərləri, həm də müasirliyi özündə əks etdirən üçrəngli Azərbaycan bayrağının daha uca zirvələrdə dalğalanacağına əminlik yaradan başlıca amildir .

Onu da qeyd etmək vacibdir ki, Azərbaycan multikultiralizmin əsas məkanlarından biridir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insan-

lar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil (5). Multikultiralizm Azərbaycanda illərdən bəri formalaşan dəyərlər toplusudur. Belə li, multikultiralizm bütün millətlərin, milli azlıqların, etnik qrupların birgəyaşayışının, milli barışığının və vətəndaş sülhünün təminatçısıdır. Ən mühüm aspektdə multikulturalizm siyasi ideologiya və sosial-mədəni praktika kimi milli dövlət üçün ümumi olan siyasi, sosial və hüquqi məkanı dəstəkləyən ideyadır. Heç təsadüfi deyildir ki, Azərbaycan xalqının multikultural ənənələrini qorumaq Azərbaycanın dövlət siyasətidir. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş multikultiralizm siyasəti müasir dövrdə Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Qloballaşan cəmiyyətdə Azərbaycan multikultiralizmi yaşadan, qoruyan bir ölkə kimi, öz həyatını multikultural dəyərlər olmadan təsəvvür etmir. Prezident İlham Əliyev 2010-cu ilin oktyabrında Bakıda "XXI əsr: ümidlər, çağırışlar" devizi ilə keçirilmiş Beynəlxalq Humanitar Forumundakı çıxışında demişdir: "Multikultiralizmin alternativi yoxdur. Multikultiralizmin alternativi özünütəcriddir. Mən inanmıram ki, XXI əsrdə qloballaşan dünyada hər hansı bir siyasi qüvvə özünütəcrid siyasətini aparmağa cəhd etsin. Multikultiralizmin dəyərləri, əsasları möhkəmləndirilməlidir"(3).

**Problemin aktuallığı.** Bu gün Azərbaycan artıq dünyada tanınmış multikultiralizm mərkəzlərindən biridir. Azərbaycan bu sahədə başqa ölkələrə örnək ola bilər. Artıq paytaxt Bakı qlobal əhəmiyyətli humanitar məsələlərin öz həllini tapdığı məkandır. Multikultiralizm bəşəriyyətin inkişafının yeganə yoludur.

**Problemin elmi yeniliyi.** Bu gün biz tam əsasla deyə bilərik ki, Heydər Əliyevin ideyaları indi də fəaliyyətdədir. Ölkəmizdəki bütün quruculuq işləri məhz bu ideyaların həyata keçirilməsi istiqamətində gedir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc nəslin tərbiyəsi və şəxsiyyətin formalaşdırılması ilə bağlı tədqiqat aparan doktorant və dissertantlara öz köməyini göstərəcəkdir.

**Ədəbiyyat:**

1. Pənahov İ. Əbədiləşən şəxsiyyət. Bakı: Qismət, 2013.
2. Şəxsiyyətin qüdrəti. Bakı: Yazıçı, 2012.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Çoxcildlik, I cild, Bakı: Azərnəşr, 1997.

**E-mail:** sevil_Hesenova57@mail.ru
**Rəyçi:** *ped.ü. fəls.dok.*, *dos.* Z.M. Əzizova
**Redaksiyaya daxil olub:** 04.12.2018